Turana gedən yol

# TDT bütün türk xalqlarının üzünə açıqdır

## *Müsahibimiz Türkiyənin görkəmli türkoloqu professor Yavuz Akpınardır*

**Professor Əli Yavuz Akpınar Türk dünyasının önəmli şəxsiyyətlərindən biridir. Onunla çalışdığı İzmirdəki Egey Universitetində görüşdük. Türk Dövlətləri Təşkilatı ilə bağlı baxışlarının maraqlı olacağını düşündük.**

Türkiyədə Türk dünyası dedikdə ağıla ilk gələn şəxs professor Əli Yavuz Akpınar olur. O, ömrünün 55 ilini Türk dünyasının öyrənilməsinə həsr etmişdir. Azərbaycan, özbək, qazax, türkmən, qırğız, tatar və s. türkdilli xalqların ədəbi əlaqələri, mənəviyyatı, mətbuatı, kimlik anlayışı kimi mövzularda çox sayda dəyərli məqalə və monoqrafiyası var. Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixini onun qədər həssaslıqla araşdıran ikinci bir alimə çox az rast gələrsiniz. Türkiyədə yaratdığı Akpınar məktəbi bu gün də Türk dünyasının birlik və bərabərliyinə xidmət etməkdədir. İsmayıl bəy Qaspıralının, Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Ziya Göyalpın başlatdıqları Turan məfkurəsinin günümüzdə ən böyük davamçısı olan Yavuz Akpınar "Xalq qəzeti" üçün müsahibə almaq xahişimizi məmnuniyyətlə qəbul etdi.

***– Xocam, sizin bütün kitablarınızda türklük məfkurəsi, Turan ideyası ana xətt kimi keçir. Bir zamanlar əfsanə hesab edilən bu ideya bu gün reallaşmaq üzrədir. Türk birliyinin təməlləri atılır, artıq Türk Dövlətləri Təşkilatı TDT) fəaliyyət göstərir. Bütün bu reallıqları tarixi keçmişimizdə türkçü düşüncə adamlarının fəaliyyətinin bəhrəsi və davamı hesab edə bilərikmi?***

– Əlbəttə, Turan ideyasına İsmayıl bəy Qaspıralıdan başlayaraq, Əli bəy Hüseynzadə və digər böyük türkçü ziyalılarımız tərəfindən ortaya atılanda da, ondan çox sonralar da, xəyali bir ideologiya, reallaşması mümkün olmayan bir nəzəriyyə kimi baxılmışdır. Belə bir birlik düşüncəsinə açıq şəkildə qarşı çıxanlar da olmuşdur.

Sualınıza cavab vermək üçün mən bir az geriyə getmək istərdim. Baxın, Osmanlı–Səfəvi qarşıdurmaları, ixtilaf və savaşları arzu etdiyimiz birliyə o qədər zərər vurmuşdur ki, onların əzabını bütün dövrlərdə çəkmişik. Bu olay, yəni Çaldıran döyüşü Osmanlı dövlətini zəiflətdi, əsas hədəfdən yayındırdı, Səfəvi dövlətinin də yıxılmasına və hakimiyyətin farsların əlinə keçməsinə zəmin hazırladı.

Eyni bəla Türküstanda da oldu. Əvvəl Əmir Teymur Sultan Bəyazidi yıxdı. Sonra onun oğulları bir-biri ilə didişməsəydi, oradakı türklərin gələcək taleyi daha fərqli olardı. Bir-birimizə düşmən kəsildiyimizin nəticəsinin nə olduğunu gördük. Bir-birimizlə səmimi əlaqələr qurduğumuz, bir birimizin yanında olduğumuz zaman hansı nəticəni alırıq? Nə zaman ki, daha ağıllı, inamlı addımlar atırıq, dünyada daha güclü oluruq. Atalarımızdan qalma bir misal çəkim. Oğuz Kağana bir ox verirlər, onu qırır, iki ox verirlər, onu da qırır, oxların sayı çoxalanda onu qırmaq mümkün olmur. Biz indi o durumdayıq. Oxlarımız qalınlaşdıqca onu qırmaq mümkün deyil.

Biz türkük, eyni soydan, eyni qandan, eyni dindən gəlirik, bunu anlamağa nə var ki? Tarixdə olan şiə–sünnü, Səfəvi – Osmanlı ixtilafları arxada qalıb. Necə ağır bədəllər ödəmişik. Artıq biz bəlli ölçüdə kamilləşmişik, nəyin nə olduğunu, ixtilafların nədən, hansı məqsədlərdən qaynaqlandığını anlamışıq. Mən bundan sonra tarixdəki o utanc səhifələrinin təkrarlanacağını zənn etmirəm. Demək tariximizdən dərs çıxarmamız gərəkdir, birlikdə olduğumuz zaman güclü olacağımızın fərqinə varmalıyıq.

***– Sovetlər İttifaqı dövründə siz türk dünyasına ən çox gedib-gələn insanlardan biri idiniz. Sovetlərin türklüklə bağlı siyasətinə bələd idiniz…***

–SSRİ bütün dövrlərdə türkləri bir-birindən ayırmaq siyasəti güdmüşdü. Sovetlər aramıza elə bir nifaq toxumu səpmişdi ki, türkləri bölüb onlardan süni qazax, özbək, türkmən milləti və s yaratmağa başlamışdılar ki, kökü, dili, mədəniyyəti eyni olan bu xalqları bir-birindən uzaqlaşdırsınlar. Biz yazdığımız əsərlərdə bunların təhlilini vermişik.

***– Halbuki "Orta Asiya" adı qoyduqları bu coğrafiya bir məkan əzəldən Türküstan idi. Hətta sovet İttifaqı zamanı "Türküstan Hərbi Dairəsi" adlı hərbi qurum da var idi, nədənsə, onun adını dəyişdirməyi unutmuşdular .***



– İndi Türkiyə doğru olaraq "Orta Asiya" və yaxud "Mərkəzi Asiya" terminlərindən rəsmən imtina etmişdir, bundan sonra oranın tarixi-coğrafi adı Türküstan olacaqdır. Digər dövlətlərimiz də belə etməlidirlər. Öncə tarixi adlarımızı bərpa etməliyik. Keçmişdə bunları etmək mümkün idimi? Yenə də o fikrimə gəlirəm ki, biz güclü və qərarlı olmaqla hər şeyi öz yoluna qoya bilirik.

Söhbətimizə keçmişdən başlamağımın da səbəbi bu idi. Bu acıları Əli bəy Hüseynzadə də bilirdi, ilk dəfə "Turan" şeirini o yazdı. Onun dövründə dünyada millətləşmə prosesi davam edirdi. Əli bəy türklüyə ən doğru yolu açdı və həm də bunu bilərəkdən etdi, "Türklər kimdir" məqaləsi ilə bu işi bəlli bir istiqamətə yönləndirdi.

Bu o zamanlar idi ki, Osmanlı dövləti "osmanlıçılıq" idealını önə çıxarmışdı, türklük yenə arxada qalırdı. Bu dövlətin bütün yükünü çəkən, savaşlarda şəhid olan türklər, İstanbulda oturub ticarətlə məşğul olub zənginləşənlər isə yəhudilər, yunanlar, ermənilər və başqaları idilər. Biz yalnız əsgər idik. Əli bəyin açdığı bu çığırla Yusuf Akçuralı, Ziya Göyalp getdilər, macarlar da bu işin içərisində var idilər. Məşrutiyyətdən sonra türklük idealı ön plana çıxdı.

Dövlətin türklük ideyasını mənimsəməsini şərt kimi irəli sürən Akçuralı həmin bütünləşmənin yollarını göstərildi Əli bəy Hüseynzadə də, Yusuf Akçuralı da, Ziya Göyalp da türklüyün bütünləşməsi məramımı anlatdılar, onu bir nəzəriyyə halına gətirdilər. Bu bütünləşmə üçün şəraitin olduğu da qeyd edilirdi. Coğrafiyamız o zaman bir- birindən o qədər də qopmamışdı, ən çox qopan bizik idik, Azərbaycandan başlamış türklərin yaşadığı coğrafiya ilə əlaqə baxımından o zaman problem yox idi.

İndi isə var. Yenidən bu bağları qurmaq çətinliyi qarşısındayıq. 1914-cü ildən sonra da, İkinci Dünya müharibəsində də ən böyük zərəri biz türklər çəkmişik.

Bütün bunlar zəif olmanın nəticəsi idi. Bu səbəbdən bolşevik rejimi bizə diqət tutdu, zəif olduğumuzdan, bir yerdə olmadığımızdan ona dirəniş göstərə bilmədik. Ənvər paşa Türküstanda bir hərəkat başlatdı. O zaman orada yaşayan türklər, özbək, türkmən və başqa xalqlar ona dəstək versəydi, bolşeviklər heç bir şey edə bilməzdilər, sonrakı mənzərə də fərqli olardı. Necə ki, Birinci Dünya müharibəsi sonunda Ənvər paşa Nuru paşanı Azərbaycana göndərdi və Bakı işğaldan xilas edildi və Azərbaycan Cumhuriyyəti varlığını yaşatdı. Orta Asiyada, yəni Türküstan coğrafiyasında bu, olmadı.

***– O dönəmlərdə Türkiyəni Azərbaycana, Türküstana bağlayan quru ərazilər bizim əlimizdə idi. İndi sıx-sıx bəhs edilən Zəngəzur da Azərbaycan ərazisi idi…***

– İndi adına Ermənistan deyilən ölkənin bütün ərazisi kimlərin idi? İrəvan bir türk xanlığı deyildimi? Bunu bilməyənmi var? Ruslar bu ərazilərə erməniləri İrandan, Osmanlı dövlətindən köçürüb yerləşdirdilər. Bunun özü də bütün türklərin bir-biri ilə vahid coğrafi əraziyə malik olmasının qarşısını almaq əməli idi. İmperializmin belə gedişləri çox olur. Bugün ABŞ Rusiyaya qarşı ukraynalıları vasitə olaraq seçmişsə, o zaman da Rusiya bizə qarşı gürcülərdən və ermənilərdən alət kimi istifadə etməyə başladı. Gürcülər bu oyuna getmədilər, coğrafi olaraq da uyğun yerdə deyildilər.

Amma ermənilər bütün bölgəyə yayılmışdılar, heç bir vilayətdə çoxluq təşkil etməsələr də, bütün coğrafiyada alət oldular. Bu səbəbdən də oyuncaq oldular, xəyal etdikləri bir dövlətə "qovuşmaq üçün" rusların hər dediyini etdilər. Buna görə də öncə ermənilər çoxlu qan tökdülər, təbii ki, onların da qanı töküldü.

Deməyim odur ki, o dövrdə Azərbaycan Osmanlı dövləti, sonra isə Türkiyə ilə təmas halında olmasaydı, bir-birinin yanında durmasaydılar, Cənubi Qafqazda bir türk dövlətinin ortaya çıxması çətin olardı. Çünki o zaman Bakıda neft sənayesində çalışanların çoxu başqa millətlər idi. Onlar biz türklərdən fərqli olaraq bolşevik təbliğatının təsiri altında idilər. O zaman Azərbaycan hərbi baxımdan da ermənilərdən geridə idi. Əsgəri yox idi, çünki Rusiya türkləri qəsdən əsgərliyə almamışdılar.

Mənim dediyim perspektivdən baxsaq, o zaman biz çox şeylərə hazır deyildik. 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini bərpa edərkən də Türkiyə bu dəyişikliklərə hazır deyildi. İndi Türkiyədəki siyasətçilər bu yöndə müəyyən addımlar atırlar. Türkiyənin içərisində formalaşmış yetkinləşmiş türklük hərəkatı bu adamları doğru addımlar atmağa məcbur edir. Biz bax bu tarixi təcrübəyə əsaslanaraq bir-birimizlə hər sahədə əməkdaşlığa getməli, əlaqələri genişləndirməliyik. Keçmişdə Turançılığa bir macəra kimi baxanlar indi anlamışlar ki, türk ziyalılarının qoruyub yaşatdıqları Turan məfkurəsi xəyal deyilmiş, günümüzdə gerçəkləşdirilməsi mümkün olan hədəfdir.

***– Professor, Türk Dövlətləri Təşkilatının ortaya çıxmasına, düşmən dairələrin zəifləməsinin nəticəsi kimi baxa bilərikmi?***

– Bəli. Gizli şəkildə onlar buna qarşı çıxa bilərlər, hələ də çevrədəki iri güclərin bəzi türk dövlətlərinə təsir imkanlarının qaldığını qəbul etməliyik. Realıqları görməyimiz lazımdır ki, sonra xəyal qırıqlığına məruz qalmayaq. Nə qədər zəifləsə də, Rusiyanın hələ də çox şeyə təsiretmə imkanları var. Biz bir araya gələrək düşmən təsirlərə qarşı mübarizə edə bilərik.

Günümüzdə Rusiya ilə ciddi ixtilafımızın olmamamsı da işimizi görməyə imkanlar yaradır, bunları da dəyərləndirməliyik. Bir-birimizi daha yaxşı tanımaq imkanları yaranmışdır. Məsələn, biz bilməliyik ki, Qazaxıstan Türkiyəyə nə verə bilər, biz Qazaxıstana hansı dəstəyi verə bilərik və s. Məncə, Türk coğrafiyası ilə öncə iqtisadi əlaqələr yüksək səviyyədə qurulmalıdır. İqtisadi əlaqələr inkişaf etmədən mədəni inkişaf olmaz. Əmir Teymur qüdrətli bir dövlət qurmuşdu, dünyaya Nəvaini və başqa dahiləri verdi, fateh Sultan Mehmet İstanbulu fəth etdi, millətimizin böyük şəxsiyyətləri yetişdi.

Hər bir dövlətin qüdrəti onun tarixə, bəşəriyyətə verdiyi dəyərlərlə ölçülür. İndi də əlaqələrimizi inkişaf etdirməyi iqtisadiyyatdan başlamalı və bir birimizi yaxşıca tanımalıyıq.

***– Xocam, təməlləri atılmış mədəni əlaqələrin genişləndirilməsi hansı səviyyədədir? Yetərlidirmi?***

– Əlbəttə, görüləsi işlərimiz çoxdur. TDT qurulmazdan öncə "TÜRKSOY" quruldu, Yunus Əmrə İnstitutu yaradıldı, Türk Akademiası fəaliyyətə başladı. Bunlar önəmli addımlardır. Bu qurumlar olmadan əsas məqsədlərimizi reallaşdırmaq çətin olardı. Dövlətlərimizin siyasi iradə nümayiş etdirmələrinə bu təsisatların təsiri var. Amma elə şeylər var ki, ona böyük maddiyyayat da lazım deyil. Mən hələ də anlamıram ki, nə üçün Türkiyədə bir Azərbaycan telekanalını maneəsiz izləyə bilmirəm? Nə üçün Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan kanallarını seyr edə bilmirik?

Nədir buna mane olan? Kosmosda peykimiz var, nədən bunu etmirlər, bilmirəm. Çağdaş dövrdə müasir texnologiyalardan yararlanmaqla mədəniyyətlərimizin yaxınlaşmasına daha çox yardım edə bilərik. Həm də bu, toplum olaraq bir- birimizi daha yaxşı anlamaq baxımından çox önəmlidir. TDT-nin fəaliyyətində ziyalıların iştirakı çox vacibdir.

Biz TDT rəhbərlərinə təkliflər, tövsiyələrdə versək, onlar ciddi addımlar ata bilərlər. Ziyalı fəallığı çox vacibdir. Bəzən dövlət adamları, diplomatlar, siyasətçilər cəsarətli addımlar ata bilmirlər. Bu, normaldır, dünyanın hər yerində belədir. Bəzən alt təbəqədən gələn bir xalq istəyi təşkilatı daha doğru, qərarlı məcraya yönəldə bilər. Niyə Türkmənistan bu proseslərdən kənarda qalsın? Mən dövlətlərin iç işlərinə qarışmıram. Amma tənqid etmək haqqım da var. Türk Dövlətləri Təşkilatına sahib çıxmalıyıq ki, o daha güclü olsun.

***– TDT-nin yaradılması dünyada gedən proseslərə də təsir imkanlarımızı artırıb. Təşkilatımızdan bəzi böyük güclər öz maraqlarına uyğun istifadə etmək istəyəcəklər. Məsələn, Çinə qarşı mübarizədə bizdən vasitə kimi istifadə edə bilərlərmi?***

– Çin dünyada yeni bir imperializm kimi özünün böyümə siyasətini davam etdirəcək. Bunu bilməliyik. Ən yaxınında kimlər var, bizlər varıq. Bu halda onun qarşısında Qazaxıstan, Qırğızıstan və başqaları təkbaşına dura bilməzlər. Amma biz birləşsək, ciddi bir güc olacağıq. Gələcəkdə TDT nədən NATO kimi bir hərbi birlik olmasın? Bunun olacağına mən inanıram.

***– TDT-nin genişlənməsi məsələsinə necə baxırsınız?***

– Birlikdə daha da güclənsək, bizə tərəf meyllər artacaq. Macarıstanı buraya kim çağırmışdı? Öz iradəsi ilə gəlmədimi? İnanıram ki, sabah bu təşkilat öz sıralarını genişləndirəcək.

***– Bu yaxınlarda bir yazı oxudum ki, Yaponiya TDT-yə maraq göstərir...***

– Yaponlar da xarici təhdidə qarşı bir ittifaq içində olmaq istəyirlər. Yaponiya Amerikaya və yaxud digər bir Qərb birliyinə güvənmir. Xirosima və Naqasakini mənmi bombaladım? Yaponlar İkinci Dünya müharibəsindən sonra imperialist düşüncədən tamamilə imtina etdilər. Yaponiya Rusiya ilə əməkdaşlıq edə bilməz. Bizə meyl etmələri təbiidir. Yüksək texnologiyaya sahib Yaponiyanın Türk birliyində olması bizim üçün çox faydalı olardı. Yenə də deyirəm, biz tariximizdə baş verənlərdən dərs çıxarmalıyıq.

Vacib məsələlərdən biri də Şimali Kiprlə bağlı münaqişədir. Düzdür, biz Kipr türklərini qətliamlardan qurtardıq, amma o dövrdə tək olmağın o qədər acısını çəkdik ki, illərcə bizə qarşı tətbiq olunan embarqo iqtisadiyyatımızı məhv etdi. Bu zərbələr olmasaydı, indi biz daha irəlidə idik. O zaman Pakistandan başqa, heç bir müsəlman dövləti bizim yanımızda olmadı.

***– TDT-də Türkiyənin aparıcı roluna necə baxırsınız?***

– Çox açıq danışacağam. Türkiyə bu proseslərdə xeyli əvvəldən çox iş görə, strateji mövqe nümayiş etdirə bilərdi. Təəssüf ki, ötənlərdə bizim bəzi siyasi kadrlarımızın intellektual potensiali buna imkan vermədi. Amma Türkiyə indi bu işə liderlik edərkən çox diqqət etməlidir, hər kəsin heysiyyəti, qüruru var. Türkiyə "mən böyük qardaşınızam" mövqeyindən çıxış etməməlidir.

***– Əslində, TDT-yə daxil olan ölkələrdə də bu fikir qəbul edilməz, çünki bir zamanlar bu ölkələrdə başqa bir "böyük qardaş" anlayışının nə olduğunu görmüşlər, onun ağrısını yaşamışlar…***

– Bu, qəbul edilən deyil. Hamımız türkük və bərabərhüquqlu haqlarımız var. Böyüklüyünü Türkiyə etsin, amma söyləməsin. Bizim heç birimizin bir-birimizdən daha üstün fəziləti yoxdur. Qazaxıstanın ərazisi böyük ola bilər, Türkmənistan ondan daha kiçik ola bilər. Amma biz hamımız soy olaraq bir kökdən gəlirik, ortaq mədəniyyətə sahibik və ruhən bir-birimizə bağlıyıq, qardaşıq. Məsələ bu qədər aydındır. Sən anlayışlı davransan, bu gün kənarda duran Türkmənistan özü can atacaq ki, məni də həmin təşkilata qəbul edin. Biz o qapını hər zaman açıq qoymalıyıq. Hətta başqalarına da eyni prinsipdən yanaşılmalıdır.

***– Rusiya Federasiyasında bir çox türk subyektləri, muxtar respublikalar var, onlar da, təbii ki, TDT ilə əlaqə qura bilərlər. Bu istiqamətdə hansı siyasət yürüdülə bilər?***

– Bilirsinizmi, Tatarıstan, Başqırdıstan başda olmaqla, bir çox türk xalqları tarixi zaman kəsiyində muxtar respublika durumuna düşüblər. Vaxtilə bu xalqlar zəif olmasaydılar, dövlətlərini itirə bilərdilərmi? Bax elə bundan da dərs almağımız lazımdır. Dünyada qloballaşma prosesi gedir, ingilis dili indi hər evə daxil olur. Bir zamanlar sovet coğrafiyasında rus dili necə hakim idisə, indi də ingiliscə elədir. Bu, əslində, mənəvi işğaldır. Əgər biz türklər bir olsaq, ortaq bir türk əlifbası, dili, mədəniyyəti yaratsaq, dünyada söz sahibi olsaq, ingiliscənin bu sayaq təsiri altında qalmarıq.

***– Xocam, TDT-nın yaradılması və fəaliyyətini keçən əsrin əvvəllərində böyüklərimizin aradığı Turan məfkurəsinin davamı hesab edə bilərikmi?***

– Mən qapının açıldığını düşünürəm. Enində-sonunda həmin Turan ideyasının gerçəkləşəcəyinə inanıram. Tutalım ki, onu arzu etdiyimiz kimi gerçəkləşdirə bilmədik. Onu yaşatmağın, qəlbimizdə müqəddəs bir arzu kimi gələcəyə daşımağımızın kimə nə zərəri var? Bu, mənə həyəcan verirsə, o həyəcan bizə yetər. Bu iş 100 il, 200 il sonra da ola bilər. Bu, heç önəmli deyil, 40 il əvvəl SSRİ-nin dağılmasına kimsə inanmazdı.

1970-ci illərdə Sovet ittifaqına səfər edərkən türklük haqqında pıçıltı ilə danışırdım ki, eşitməsinlər. O zaman təbii ki, sovetlərin dağılacağına inana bilməzdik. Zaman dəyişir, imkanlar çoxalır. Biz bunlara hazır olmalıyıq. Ən azından nəzəri olaraq könlümüzdə həmin Turan məfkurəsinin qapısını açıq qoymalıyıq.

***– Dəyərli fikirlərinizə görə təşəkkür edirik.***

***Söhbəti yazdı:***
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***